# Hədəf miqrantlardır

## Yaxud öz gözündə tiri görməyən Rusiya

**Rusiyada miqrantlara qarşı nifrət ovqatı artır. Çoxları hesab edir ki, gəlmələrin hamısı qanunları pozur və ucuz miqrant işçi qüvvəsi olaraq rusların daha çox qazanmasına mane olur. Deputatlar mütəmadi olaraq miqrantların hüquqlarını məhdudlaşdırmaq üçün daha sərt qanunlar qəbul edirlər.**




Rusiyada miqrantların həyatı mürəkkəb və çoxşaxəlidir və onlar üçün məşhur "Rusiyada kim yaxşı yaşayır" sualı aktual olaraq qalır. Miqrantların yaşayış və iş şəraiti çox vaxt aşağı əməkhaqqı, ayrı-seçkilik və adaptasiya problemləri ilə müşayiət edilir. Buna baxmayaraq, bəzi miqrantlar Rusiyada öz ölkələrindən daha çox qazandıqlarından bütün bunlara dözməli olurlar.

Müxtəlif hesablamalara görə, Rusiyada 6,5 milyondan 12,3 milyona qədər xarici vətəndaş var. Onların təxminən 3-3,5 milyonu qeyri-leqal əmək miqrantıdır. Ən çox əcnəbi Özbəkistan, Tacikistan, Qazaxıstan, Çin, Qırğızıstan, Ermənistan və Belarus vətəndaşlarıdır. BBC yazır ki, Rusiyada miqrantlar sərt tənzimlənən sistemdə mövcud olmağa məcburdurlar və onların hüquqi statusu bilavasitə iş icazəsi, qeydiyyat, miqrasiya kartı və digər sənədlərindən asılıdır. İstənilən kiçik səhv onların statusunun ləğvinə və deportasiyaya səbəb ola bilər.

Mülk sahibləri çox vaxt miqrantlara mənzil kirayə vermirlər və bir çoxları öz elanlarında açıq şəkildə "yalnız slavyanlar üçün" qeyd edirlər. Bu və digər hüquqları pozulduqda miqrantlar ədalətə çatmaqda çətinlik çəkirlər. Hər gün bir çoxları ksenofobiya ilə üzləşir, övladları "yer çatışmazlığına görə" uşaq bağçalarına və məktəblərə qəbul olunmur, özləri də iş yerlərində maskalıların reydlərinə məruz qalırlar. Hüquq müdafiəçiləri daim deyirlər ki, təhlükəsizlik qüvvələri deportasiya təhlükəsi ilə miqrantlardan rüşvət alır.

Hətta Rusiyanın Ukraynaya genişmiqyaslı müdaxiləsi miqrantlara təzyiq vasitəsinə çevrilib. Miqrantlar, məsələn, ölkəyə giriş qadağasının ləğvi, vətəndaşlığın alınmasının sürətləndirilməsi və ya deportasiyanın ləğvi kimi vədlər əvəzində müharibədə iştirak etməyə məcbur edilirlər. Kiçik cinayətlərə görə həbs edilən miqrantlar Müdafiə Nazirliyi ilə müqavilə bağladıqları halda azadlığa çıxıb müharibəyə yollana da bilərlər.

Son bir il ərzində Rusiya hakimiyyəti nikah yolu ilə yaşayış icazəsinin alınmasını məhdudlaşdırıb. Yəni sadələşdirilmiş prosedur ləğv edilib və əcnəbilər təkcə nikah faktını deyil, həm də uzunmüddətli birgə yaşayış faktını təsdiqləməlidirlər. İndi də rus dilini baza səviyyəsində bilməyən uşaqların məktəblərə qəbuluna qadağa qoyulub. Digər düzəlişlər Daxili İşlər Nazirliyinə miqrantları Rusiyadan məhkəməsiz deportasiya etməyə imkan verir.

Amma təkcə deportasiyamı? Yekaterinburqda həmyerlilərimizin başlarına gətirilənlər göstərdi ki, yox!

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***

Azərbaycan.-2025.- 1 iyul (№ 131).- S.12.